**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**VÜSALƏ MƏMMƏDQULU QIZI İSMAYILOVA**

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BİOLOGİYANIN TƏDRİSİNDƏ MƏKTƏBLİLƏRİN MƏNƏVİ TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN SİSTEMİ

5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2013**

İş Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

**ELMİ RƏHBƏR:** Rusiya Sosial-Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü, pedaqogika üzrə elmlər doktoru, professor **Oruc Qafar oğlu Həsənli**

**RƏSMİ OPPONENTLƏR:** Pedaqogika üzrə elmlər doktoru, professor **Fərahim Balakişi oğlu Sadıqov**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Kamal Həsən oğlu Camalov**

**APARICI TƏŞKİLAT:** **Sumqayıt Dövlət Universitetinin** "Pedaqogika və psixologiya" kafedrası

Müdafiə 28 dekabr 2013-cü il tarixdə saat $11^{00}$-da Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD.02.121 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi, əsas bina, I mərtəbə, Böyük akt zalı.

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"_____________2013-cü il tarixdə göndərilmişdir.

**FD. 02. 021 DİSSERTASİYA ŞURASININ ELMİ KATİBİ:** **dos. İ.Z. Cəfərov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Dünyada ən sürətlə inkişaf edən ölkələr sırasında yüksək pillələrdə duran Azərbaycan Respublikası və onun dövlət siyasəti gələcək inkişafı təmin etmək üçün insan kapitalına xüsusi önəm verir. Bu böyük siyasətin əsas prioritetlərindən biri də müasir dövrdə yetişən gənc nəslin mənəvi tərbiyəsinin, şəxsiyyətin formalaşdırılmasıdır.

Ümummilli lider Heydər Əliyev böyük uzaqgörənliklə insan həyatında mənəvi tərbiyənin rolunu son dərəcədə yüksək qiymətləndir-mişdir: "Gənclərimizin qarşısında duran əsas vəzifələrdən biri mənəvi tərbiyə məsələsidir".[1]

Bu gün mənəvi tərbiyə problemi beynəlxalq aləmə, ümumdünyaya aid bir problem kimi öz həllini gözləyir. XXI əsr insanının, vətəndaşının şəxsiyyətinin yetişdirilməsi istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 iyun 2009-cu il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nun 4.0.1. bəndində göstərilir ki, təhsilin əsas məqsədi "Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir".[2]

"Azərbaycan Respublikasında ümumi təhsil Konsepsiyası (Milli Kurikulum)" özünün humanist, nəticəyönümlü mahiyyətinə görə ölkə-mizin tarixində müasir şəxsiyyətyönümlü tendensiyalara uyğun sənəddir. Respublikamızda yeni hazırlanan kurikulumun başlıca məqsədlərindən biri də dünyanı və özünü dərk edə bilən aydın təfəkkürə, geniş dünya-görüşə malik şəxsiyyətin formalaşdırılmasıdır.

Göründüyü kimi, müasir dövrdə Azərbaycan Respublikasında yetişən gənc nəslin mənəvi tərbiyəsi hər bir valideynin, ümumtəhsil məktəbinin, cəmiyyətin və dövlətin qarşısında duran ən aktual problemlərindən biridir.

Məktəbin bütün tədris proqramı hadisələrə idrakın gücü ilə qiymət vermək vərdişləri, məntiqi təfəkkürü inkişaf etdirmək, mənəviyyatlı, insanı içərisində biologiya dərsləri də (botanika, zoologiya, insan, ümumi

---

[1] Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002, 357-358 s.
[2]Təhsil haqqında AzərbaycanRespublikasının Qanunu. www. edu.gov.az



biologiya) şagirdlərin bilik və mənəvi inkişaf istiqamətləri üzrə müəyyənedici, təyinedici xarakterə malikdir.

Bütün digər tədris fənləri kimi biologiya dərsləri də təlim və tərbiyə məqsədlərini yerinə yetirir ki, bu istiqamətdə aparılan işlər içərisində mənəvi tərbiyə işi xüsusi yer tutur. Çünki "Biologiya" təhsil sahəsi də insanın tarixən topladığı mənəvi mədəniyyətin bir hissəsidir.

Təhlil və araşdırmalarımız göstərir ki, mənəvi tərbiyə üzrə ümumtəhsil məktəblərində biologiya dərslərinin tədrisi zamanı pedaqoji səviyyədə bir sıra ziddiyyətlər vardır ki, bunlar aşağıdakılardan ibarətdir:

- Obyektiv ehtiyac və tələbatlardan doğan mənəvi tərbiyənin bir çox pedaqoqlar tərəfindən dərk edilməsi, lakin ona adekvat sosial-pedaqoji sistemin hazırlanıb işlənilməməsi;
- Bioloji təhsilin mənəvi tərbiyə üzrə potensial imkanlarının olması, lakin ondan ümumtəhsil məktəblərinin təlim-tərbiyə prosesində kifayət qədər istifadə edilməməsi;
- Mənəvi tərbiyə işində müəllimin aparıcı rolunun təntənəli şəkildə söylənilməsi, lakin müəllimlərin bir çoxunda zəruri meyl və istəklərin, marağın, biliyin və şəxsi təcrübənin olmaması.

Bütün bu ziddiyyətlərin aşkarlanması da bir daha göstərir ki, ilk dəfə bizim tərəfimizdən araşdırılmasına təşəbbüs edilən dissertasiya tədqiqatının mövzusu - "Ümumtəhsil məktəblərində biologiyanın tədrisində məktəblilərin mənəvi tərbiyəsinin formalaşdırılması üzrə işin sistemi" xüsusi aktuallıq kəsb edir.

**Dissertasiyada əsas tədqiqat obyekti** ümumtəhsil məktəbləri şagirdlərinin mənəvi tərbiyəsidir.

**Tədqiqatın predmeti** ümumtəhsil məktəblərində biologiyanın tədrisi zamanı şagirdlərin mənəvi tərbiyəsinin məzmunu və xarakterinin öyrənilməsidir.

**Tədqiqatın məqsədi** məktəblilərin biologiya dərslərinin tədrisi prosesində mənəvi tərbiyəsinin formalaşdırılması üzrə işin məzmun istiqamətini üzə çıxarmaq, nəzəri əsaslandırma və eksperimental yoxlamadan keçirməklə imkan və yollarını müəyyənləşdiməkdən ibarətdir.

Tədqiqata yanaşmada aşağıdakı **işçi fərziyyəsi** irəli sürülmüşdür:

- Ümumtəhsil məktəblərində biologiya dərslərinin mənəvi tərbiyə imkanları üzə çıxarılarsa şagirdlərin şəxsiyyət kimi yetişməsi, təlim-tərbiyə prosesinə münasibətləri hiss olunacaq qədər yüksələr;
- Biologiya üzrə tədris materiallarının məzmunundakı tərbiyə imkanlarının reallaşdırılması şagirdləri ictimai təcrübəni mənimsəmə işinə daha fəal və səmərəli şəkildə qoşmağa kömək edər;

- Biologiya müəllimləri optimal üsul və vasitələrdən istifadə edərsə, təlimi sinifdənxaric iş və məktəbdənkənar tədbirlərlə uzlaşdıraraq şagirdlərlə aparılan mənəvi tərbiyə işi səmərəli nəticə verə bilər.

Tədqiqatın məqsədindən və işçi fərziyyəsindən irəli gələn **vəzifələr** aşağıdakı kimi müəyyənləşdirilmişdir:

1. Məktəbdə tərbiyə prosesinin ümummədəni məzmun aspekti və biologiya dərslərində şagirdlərin mənəvi tərbiyəsinin formalaşdırılması ilə bağlı sosial-fəlsəfi, pedaqoji və metodiki ədəbiyyatları öyrənmək;

2. Biologiya dərslərində şagirdlərin mənəvi tərbiyəsi üzrə işin mahiyyətinin müasir elmi-nəzəri xüsusiyyətlərini xarakterizə etmək;

3. Şagirdlərin tərbiyə olunmasında digər fənlərlə yanaşı biologiya dərslərinin yeri və rolunu aşkarlamaq, tərbiyə sisteminin tərkib hissəsi olduğunu açıqlamaq;

4. Biologiyanın tədrisi prosesində şagirdlərin mənəvi tərbiyəsi ilə bağlı mövcud vəziyyəti öyrənmək, bu sahə üzrə işin səmərəliliyini yüksəltmək məqsədi ilə əsas istiqamətləri müəyyənləşdirmək;

5. Bu fənnin sosial faydalılığına əsaslanmaqla şagirdlərin mənəvi tərbiyəsinin forma və metodlarını, vasitə və üsullarını aşkar etmək;

6. Bioloji məzmun istiqamətinə malik sinifdənxaric işlər və məktəbdənkənar tədbirlər zamanı şagirdlərin mənəvi tərbiyəsi üzrə imkanları üzə çıxarmaq;

7. Biologiya dərslərində şagirdlərin mənəvi tərbiyəsi üzrə əsas fəaliyyət növlərini təcrübi-eksperimental yolla üzə çıxarmaq və təsdiq etmək.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** insanın fiziki və mənəvi inkişafı haqqında fəlsəfə, psixologiya, pedaqogika və biologiya dərslərində tarixən formalaşmış mütərəqqi ideyalar, şəxsiyyət haqqında müasir elmi nəzəriyyələr, təlim-tərbiyə prosesində hər bir obyektə tam yanaşma haqqında fikirlər, nəhayət, təbiət və humanitar elmlərin inteqrasiyası əsasında insanşünaslıq elmləri üzrə biliklər təşkil edir.

**Tədqiqatın metodları.** Tədqiqatda qoyulan məqsəd və vəzifələrin həlli yollarına nail olmaq üçün nəzəri təhlil, pedaqoji müşahidə, pedaqoji müsahibə və anket sorğusu, pedaqoji eksperiment, məktəb sənədlərinin öyrənilməsi və s. metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın elmi yeniliyi onunla müəyyənləşir ki, ilk dəfə olaraq: a) ümumtəhsil məktəblərində biologiya dərslərinin tədrisi zamanı şagirdlərin mənəvi tərbiyəsinin ümumi və spesifik əlamətləri, onun məzmun xüsusiyyətləri aşkar olunur; b) biologiya dərsləri üzrə mənəvi tərbiyə işinin ümumtəhsil fənləri ilə qarşılıqlı əlaqə və vəhdəti müəyyən edilir; c) təhlil və ümumiləşdirmələr nəticəsində bioloji



təhsilin mənəvi tərbiyə imkanlarının nəzəriyyə və praktikası açıqlanır; ç) müxtəlif mənbələrə əsaslanaraq insanın mənəvi mahiyyəti tam halda aktuallaşdırılır; d) mənəvi tərbiyənin struktur məzmun xüsusiyyətləri təklif olunur, həmçinin bu istiqamətdə aparılan işlərin bir-biri ilə sıx vəhdətdə olan üç mühüm komponenti-emosional, intellektual və iradi komponentləri təqdim edilir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** aşağıdakılardan ibarətdir:

- Tədqiqatın nəticələri ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi sahəsi üzrə elmi bilikləri genişləndirir və dəqiqləşdirir.

- Biologiyanın tədrisi prosesində mənəvi tərbiyənin formalaşdırılmasını şagird şəxsiyyətinin inkişafının zəruri şərti kimi əsaslandırılmaqla digər fənlər üzrə bu istiqamətdə tədqiqatlar aparmağa stimul yaranır.

- Şagirdin mənəvi tərbiyəsi işində yaranan ziddiyyətlərin aradan qaldırılmasında bioloji təhsilin imkanları elmi nikbinliyi müəyyən edir.

**Tədqiqatın təcrübi əhəmiyyəti** onunla müəyyən olunur ki, tədqiq olunan problem ümumpedaqoji istiqaməti ilə ümumtəhsil məktəbləri şagirdlərinin bioloji təhsil nümunəsində mənəvi tərbiyəsini səmərəli və düzgün qurmağa kömək edər, pedaqoji kollektivi bu istiqamətdə ideyalar və tövsiyələrlə silahlandırar. Tədqiqat zamanı hazırlanmış metodik tövsiyələr və onların reallaşdırılması, xüsusilə bioloji təhsil üzrə mənəvi tərbiyə imkanlarının aktuallaşdırılmasının metodologiyasının işlənilməsi təkcə təbiət elmlərinin tədrisində deyil, ictimai-humanitar fənlərin öyrədilməsi zamanı da faydalı olar.

Müdafiəyə çıxarılan **müddəalar aşağıdakılardır:**

1. Müasir təhsil fəlsəfəsi anlayışının mahiyyəti şagirdlərin sosial-pedaqoji təsirlər sistemində mənəvi tərbiyəsi ilə müşaiyət olunur və bu tərbiyə istiqaməti milli dəyər və ənənələrlə, humanist və ümumbəşəri ideallarla bağlıdır.

2. Canlı təbiətin vəhdəti və onun məzmununun biologiya dərslərində əks olunması məktəblilərin mənəvi tərbiyəsini formalaşdırmaq üçün məqsədəyönəldilmiş konsepsiyanın hazırlanmasını və ona tam yanaşma mövqeyinin müəyyənləşdirilməsini diqtə edir.

3. Bioloji anlayışların mövcud sistemi təkmilləşdirilməli və onların öyrənilməsi prosesinin yetişən nəslin emosional vəziyyətinə, intellektual səviyyəsinə, iradi keyfiyyətlərinin inkişafına verəcəyi fayda, səmərəli təsiri üzə çıxarılmalıdır.

4. Biologiya dərslərində şagirdlərlə aparılan tədris məşğələləri və sinifdənxaric işlər zamanı mənəvi tərbiyənin formalaşdırılmasına müasir

məktəbin müəllimi öz pedaqoji fəaliyyətində uğurla rəhbərlik etməyi bacarmalı, bu istiqamətdə işləri dərsin əsas komponentinə çevirməyi bacarmalıdır.

**Tədqiqatın aprobasiyası**. Tədqiqatın mövzusu Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 17 yanvar 2008-ci il tarixli iclasında təsdiq olunmuşdur (protokol №6). İş 2008 - 2011 - ci illərdə Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları 18 elmi məqalə və tezislərdə öz əksini tapmışdır. Müəllif tədqiqatın nəticələri ilə bağlı "Doktorantların və gənc tədqiqatçıların XV Respublika Elmi konfransı"nda (Bakı, 2011), "Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri" mövzusunda Respublika Elmi konfransında (Bakı, 28 iyun 2012), "Научная дискуссия: вопросы педагогики и психологии: материалы III Международной заочной научно-практической конференции" (Москва, 18 июля 2012), "Ümumi orta təhsilin müasir problemləri" mövzusunda Beynəlxalq Elmi Konfransda (Naxçıvan, 24 noyabr 2012), Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi konfransında (Bakı, 18 dekabr 2012) məruzələr söyləmişdir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, iki fəsil, o cümlədən 6 yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, metodoloji əsasları, elmi yeniliyi, elmi-nəzəri və praktik əhəmiyyəti, habelə müdafiəyə çıxarılmış müddəalar verilmişdir. Tədqiqatın nəticələrinin tətbiqi və aprobasiyası açıqlanmışdır.

Dissertasiyanın **"Ümumtəhsil məktəblərində biologiyanın tədrisində məktəblilərin mənəvi tərbiyəsinin nəzəriyyə və praktikası"** adlanan birinci fəslinin birinci yarımfəsli "**Mənəvi tərbiyə pedaqoji problem kimi"** adlanır. Yarımfəsildə göstərilir ki, XX əsrin sonları və bizim əsr sosial həyatda, fəlsəfi, pedaqoji, psixoloji tədqiqatlarda gənc nəslin mənəvi tərbiyəsinin aktuallaşması, mənəvi insanı formalaşdırmaq məqsədlərinin həyata keçirilməsi tələbinin artması ilə xarakterizə olunur. Mənəvi tərbiyə nədir? Onun pedaqoji-psixoloji, fəlsəfi əsasları nədən ibarətdir? Bu istiqamətdə məktəb necə bir səviyyədə və məzmunda imkanlara malikdir? Mənəvi nöqteyi-nəzərdən zəngin insanın formalaşdırılmasında ümumtəhsil məktəbi gələcəkdə daha hansı işləri görə



bilər və görməlidir? və s. bu kimi sualları aydınlaşdırmaq üçün problemin tədqiqatlarda necə əks olunduğuna, indiyəqədərki vəziyyətinə nəzər yetirmək başlıca vəzifə olmuşdur. Bu zaman mənəvi tərbiyə anlayışının ifadə etdiyi məna və məzmuna münasibətdə pedaqoji ədəbiyyatda dəqiqləşdirilməmiş mülahizələr üzə çıxarılaraq təhlil-tərkib edilmişdir. İlkin olaraq ensiklopediyalarda, lüğətlərdə, soraq-məlumat kitabçalarında mənəvi tərbiyə və əxlaq tərbiyəsi anlayışlarının mahiyyəti haqqında həm ölkəmizdə, həm də xarici ölkələrdə bu istiqamətdə yazılmış tədqiqat əsərləri təhlillərə cəlb edilmişdir və mənəvi tərbiyənin mahiyyəti, məzmunu, kateqorial xarakteristikası, meyar və göstəriciləri, hissi (emosional), əqli (intellektual) və iradi komponentləri haqqında nəzəri ümumiləşdirmələr aparılmış, problemin konseptual xarakteristikasının işlənib hazırlanmasına səy göstərilmişdir.

Mənəvi tərbiyənin fəlsəfi əsaslarını araşdırarkən bir çox filosofların bu istiqamətdə fikirləri tədqiqata cəlb olunmuşdur. Mənəvi tərbiyənin fəlsəfi əsaslarını araşdırarkən belə nəticəyə gəlinmişdir ki, müəyyən pedaqoji nəzəriyyənin quruluşunun əsasında fəlsəfi biliklər durur. Hər bir nəzəri tədqiqat gerçəkliyin öyrənilməsi ilə bağlıdır, bəzən də dərketmənin konkret sahəsində alimlərin fəlsəfi - pedaqoji ideyalarının analizi ilə əlaqəlidir. Pedaqogika bu anlamda fəlsəfəyə dərketmə üçün material verir, onların vasitəsilə tərbiyə predmeti fəlsəfə və pedaqogikanın mənəvi-mental dialoqunda mühüm obyekt hesab olunur.

Birinci fəslin ikinci yarımfəsli **"Mənəvi tərbiyənin formalaşdırılmasında biologiya dərslərinin rolu"** adlanır. Yarımfəsildə biologiya dərslərinin geniş potensial imkanlarını nəzərə alaraq bu mühüm problemin həyata keçirilməsi məqsədilə ümumtəhsil məktəblərində şagirdlərin fənn üzrə qazandıqları bilik, bacarıq və vərdişlərini onların mənəvi tərbiyəsi ilə bağlamağın, biliyə mənəvi dəyər münasibəti formalaşdırmağın yolları araşdırılmışdır.

Biologiya dərsləri şagirdlərdə canlılara dair zəruri bilik və bacarıqlar mənimsətməklə onlarda ekoloji mədəniyyət, estetik zövq, humanistlik, bəşərilik və vətənpərvərlik kimi mənəvi keyfiyyətlər formalaşdırır. Biologiyanın problem baxımından ayrı-ayrı siniflərdə imkanları araşdırılaraq dünyagörüşün mahiyyətini müəyyən edən insan və dünya konsepsiyası haqqında məlumat verilməklə spesifik ümumi-ləşdirmələr aparılmış, həmçinin şagirdlərın mənəviyyatını formalaş-dırmaq üçün istifadə edilən əsas pedaqoji və dialektik prinsiplər təqdim edilməklə, mənəvi tərbiyə ilə bağlı imkanlardan səmərəli istifadənin vacıb olduğu xüsusi vurğulanmışdır.

Ümüməhsil məktəblərində biologiyanın istər botanika, istərsə də zoologiya, insan, ümumi biologiya bölmələrinin öyrədilməsi prosesində şagirdlərin mənəvi tərbiyəsinin formalaşdırılması aşagıdakı vəzifələrin həyata keçirilməsi ilə mümkündür.

- hər bir canlı üçün məsuliyyət daşımağı öyrətməklə, bütün canlıların dəyərli olduğunun təbliğ edilməsi;
- qlobal ekoloji problemləri dərk edərək şagirdlərin ekoloji savada yiyələnməsi, bütün canlıların anamız Yer kürəsinin başlıca dəyəri, neməti kimi dərk edilməsi, təbiətə ümuminsani mülk kimi yanaş-maqla düzgün, harmonik münasibətin formalaşdırılması;
- şagirdlərin mənəvi və estetik hisslərinin, təbiətə məhəbbət və onun mühafizəsi, xüsusilə diyarşünaslıq materialları əsasında Vətənə, doğma yurda, onun təbiətinə sevgi, əsl vurğunluq duyğularının tərbiyə edilməsi;
- gigiyenik tərbiyə, sağlam həyat tərzinin formalaşdırılması;
- səmərəli tərbiyəvi fon yaradılması, insanlığın mənəvi mədəniyyəti, mənəvi dəyərlərin şagirdlər tərəfindən dərk edilib mənimsənilməsi, bu dəyər və normalarla onların gündəlik davranış-larının möhkəmləndirilməsi;
- yüksək emosional təsir gücünə malik estetik zövq və hisslərin tərbiyə edilməsi;
- ünsiyyət mədəniyyətinın əsaslarının formalaşdırılmasına köməklik göstərilməsi və s.

Beləliklə, məktəbdə daşıdığı funksiyaya görə biologiyanın iki mühüm istiqamətini müəyyənləşdirmək olar:

1. Bilik, bacarıq və vərdişlərin formalaşdırılması istiqaməti;
2. Şəxsiyyət (mənəvi) keyiyyətlərinin formalaşdırılması istiqaməti;

Birinci fəslin **“Biologiya dərslərində şagirdlərin mənəvi tərbiyəsi işinin mövcüd vəziyyəti”**nə həsr olunmuş üçüncü yarımfəslində cağdaş Azərbaycan məktəblərində biologiya dərslərinin tədrisi zamanı şagirdlərin mənəvi tərbiyəsinin təşkili ilə əlaqədar məsələlər araşdırılmışdır.

Müəllim və şagirdlərin mənəvi tərbiyə üzrə məlumatlılıq səviy-yəsini aydınlaşdırmaq məqsədilə Naxçıvan şəhər 1, 2, 5, 8, 10, 12, 14 saylı və Şahbuz, Ordubad, Şərur, Culfa rayon məktəblərinin biologiya müəllim və şagirdləri ilə anket sorğusu apardıq. “Mənəvi tərbiyə nədir?”, “Sizin fikrinizcə, tədris etdiyiniz hansı mövzular, bəhslər mənəvi tərbiyə imkanları ilə zəngindir?”, “Şagirdlərin mənəvi tərbiyəsi anlayışının mahiyyətinə nələr daxildir?”, “Biologiya fənni konkret olaraq hansı mənəvi keyfiyyətləri inkişaf etdirə bilər?”, “Biologiya dərslərində mənəvi tərbiyə üzrə söhbətlər aparırsınızmı?” və s. bu kimi suallara müəllimlərin cavablarından məlum oldu ki, bəzi biologiya müəllimlərinin mənəvi tərbiyə istiqamətində



gördüyü işləri qənaətbəxş hesab etmək olmaz, pedaqoji əsaslara malik belə bir mühüm məsələnin həyata keçirilməsinə biganəlik göstərirlər. Baxmayaraq ki, ümumi tərbiyə metodikasına və tədris etdiyi fənnin tədris metodikasına yaxşı yiyələnməmiş müəllimlərə rast gəlinsə də, bu istiqamətdə işini yüksək səviyyədə quran, günümüzün tələblərini layiqincə yerinə yetirməyə çalışan müəllimlərimiz də az deyil.

“Biologiyanın tədrisinin sizin mənəvi aləminizə təsirini necə qiymətləndirirsiniz?”, “Sizin mənəvi zənginliyiniz üçün hansı mənbələr başlıca rol oynayır? suallarına cavablarında şagirdlər mənəvi tərbiyənin mahiyyətinin nədən ibarət olduğunu müəyyənləşdirməkdə çətinlik çəkirlər. “Siz Vətən, kollektiv, müəllim, valideynləriniz qaşısında borcunuzu necə təsəvvür edirsiniz?” sualına şagirdlərin konkret olaraq mənəvi keyfiyyət kimi borc hissini sorğu yolu ilə müəyyənləşdirmək üçün alınmış nəticələrin təhlili göstərdi ki, şagirdlərin bu məsələ ilə bağlı tərbiyəvilik səviyyəsini üç qrupa bölmək olar.

Birinci qrupa daxil olan şagirdlər borc keyfiyyətinin əsas əlamətlərini və məzmununu müəyyənləşdirə bilmir (13,23%). İkinci qrup yeniyetmələr borc anlayışını dərk edir, motivləri düzgün, müsbətdir. Ancaq işdə, əməldə bu motivlər reallaşdırılmır, uyğunsuzluq, rabitəsizlik müşahidə olunur (29,42 %). Üçüncü qrup şagirdlər isə borc anlayışının mahiyyətini dərk edir və onu həyat təcrübələrində reallaşdırmağı bacarırlar (57,35%).

Ümumiyyətlə, məktəbdə biologiya dərslərinin öyrədilməsi prosesində şagirdlərin mənəvi tərbiyəsi işinin mövcud vəziyyəti haqqında belə bir ümumiləşdirilmiş fikrə gəlmək olar ki, ümumtəhsil məktəblərində biologiya dərslərinin şagirdlərin mənəvi tərbiyəsi işində uğurlu nəticələr əldə edilməsinə baxmayaraq, ümumilikdə bu sahədə görülən işləri qənaətbəxş hesab etmək olmaz, fənn müəllimləri, məktəb rəhbərləri bu istiqamətdə işin əhəmiyyətini dərk etməli və şagirdlərin mənəvi simasının formalaşdırılmasında çox mühüm həlqə kimi biologiya dərslərinin imkanlarından geniş və hərtərəfli şəkildə istifadə etməlidirlər.

Dissertasiyanın ikinci fəsli **“Ümumtəhsil məktəblərində biologiyanın tədrisində məktəblilərin mənəvi tərbiyəsinin məzmunu, forma və metodları”** adlanır. Fəslin birinci yarımfəsli **“Biologiya dərslərində məktəblilərin mənəvi tərbiyə işinin təşkili imkanları”**nın öyrənilməsinə həsr edilmişdir. Burada iki mühüm cəhət: şagirdlərin idrakını alovlandırmaq-bilik, bacarıq və vərdişlərlə silahlandırmaq və bu elmin gözəlliyi ilə onların qəlbini şöləlandirmək-mənəvi tərbiyəsini formalaşdırmaq başlıca vəzifə hesab olunur.

Biologiya dərslərinin mənəvi tərbiyə imkanlarının reallaşdırılması

məqsədilə pedaqoji fəaliyyətin bir sıra növlərindən istifadə edilmişdir.

1. Canlı təbiətin müşahidəsi;

2. Şagirdlərin görkəmli alimlərin həyat fəaliyyəti nümunəsində yüksək mənəvi keyfiyyətlərə yiyələnmək işinə qoşulması;

3. Biologiya dərslərinin məzmununda Vətən məhəbbətinin, bu istiqamətdə xalqın mənəvi dəyərlərinin aktuallaşdırılması.

Problem baxımdan işin səmərəliliyinə nail olmaq üçün ilk növbədə vacib şərtlərdən biri də şagirdlərin biologiya fənninə marağının artırılmasıdır. Bəs fənnin səmərəlilik səviyyəsinə necə nail olmalı? Şagirdlərin biologiya fənninə idrak maraqlarını necə aktivləşdirməli? Bu suallar ixtisasından asılı olmayaraq hər bir pedaqoq müəllimi düşündürməlidir.

Tədqiqat zamanı biologiya dərslərində mənəvi tərbiyə imkanlarının reallaşdırılması üçün eksperimentlər aparılmış və eksperimet apardığımız məktəblərin VI - XI sinif şagirdlərinin "Biologiya" fənninə marağı anket sorguları nəticəsində reytinq dinamikası (diaqram) vasitəsilə üzə çıxarılmışdır.

Diaqram 1

VI-XI siniflər üzrə "Biologiya" fənninin reytinqinin dinamikası




Göründüyü kimi, yuxarı siniflərdə tədris fənni kimi "Biologiya"nın reytinqi əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. Bunun səbəbi yuxarı siniflərdə şagirdlərin başqa ixtisas seçmələri ilə əsaslandırılır. Fənnin səmərəlilik səviyyəsinə nail olmaq üçün sinif kollektivini yeni, orijinal, maraqlı axtarıcılıq işlərinə qoşmağın vacibliyi vurğulanmışdır.

Tədqiqat zamanı ümumtəhsil məktəblərində şagirdlərin biologiya dərsləri üzrə inkişaf xüsusiyyətləri, nailiyyətlərinin səmərəlilik səviyyəsi, bu istiqamətdə perspektivin müəyyənləşdirilməsi məsələləri, bir sözlə təlim - tərbiyə prosesində kəskin dəyişikliklərin olub - olmadığı, hansı müsbət imkan və meyllərin üzə çıxdığı və s. cəhətlər də aydınlaşdırılmışdır. Biologiya dərslərində bədii ədəbiyyat, ekologiya, sağlamlığın qorunması,



gigiyenik meyarların müəyyənləşdirilməsi, diyarşünaslıq istiqamətində daha ciddi işlərin görülməsində səriştəli müəllimlərin iş təcrübəsinin təhlilini apararaq maraqlı təkliflər irəli sürülmüşdür. Eyni zamanda bu elm üzrə görkəmli alimlərin həyat və yaradıcılıq yolunun maraqlı səhifələri haqqında şagirdlərə məlumat verməklə onlarda milli iftixar və vətənpərvərlik duyğuları, bəşəri hisslər inkişaf etdirilir.

İkinci fəslin ikinci yarımfəsli **"Bioloji məzmun istiqamətli sinifdənxaric işlər və məktəbdənkənar tədbirlər zamanı şagirdlərin mənəvi tərbiyəsi"** adlanır. Mənəvi tərbiyənin formalaşmasında sinifdənxaric işlər və məktəbdənkənar tədbirlər şagirdlərin emosional və intellektual aləminə xidmətə istiqamətlənmişdir.

Biologiya üzrə mənimsənilmiş biliklərə əsaslanmaqla təbiətə ekskursiya, sərgilər, rəsm müsabiqələri, ənənəvi viktorinalar, biologiya müəllimlərinin təşkil etdiyi olimpiadalar, dərnəklərlə əlaqədar işlər "Günəşli şəhərimiz" adlı oyun-səyahət, "Divar qəzeti"ndə mühazirəçilər qrupu, təbiəti mühafizə ("Təbiətlə davranış qaydaları" cədvəl şəklində verilmiş ümumiləşmə) və s. ekoloji və mənəvi tərbiyə ilə əlaqədar layihələr problem baxımdan çox əhəmiyyətlidir.

Eksperimentə cəlb edilmiş məktəblərdə qabaqcıl təcrübəyə malik biologiya müəllimlərindən Naxçıvan şəhər 4 saylı orta məktəbin müəllmi A. Mürsəlzadənin, Şahbuz rayonu Kolanı kənd orta məktəbin biologiya müəllimi V. Zülfüqarovun, Naxçıvan şəhər 12 saylı orta məktəbin müəllimi M. Rəhimovanın, Naxçıvan şəhər 2 saylı orta məktəbin müəllimi Z. Məmmədovanın, Naxçıvan şəhər 1 saylı orta məktəbin müəllimi S. Əliyevanın sinifdənxaric və məktəbdənkənar tədbirlər zamanı iş təcrübəsi dissertasiyada geniş şəkildə öz əksini tapmışdır.

Tədqiqat zamanı üç **mərhələdə (müəyyənləşdirici, formalaşdırma, yoxlayıcı) aparılan eksperimental-təcrübi işlər ikinci fəslin üçüncü yarımfəslində** şərh olunmuşdur. Eksperimentlər Naxçıvan şəhərinin 1, 2, 4, 5, 7, 8, 12, 14, 15, 16 saylı məktəblərində, Şahbuz, Culfa, Ordubad, Şərur rayon təhsil şöbələrinin əhatə etdiyi orta ümumtəhsil məktəblərində aparılmışdır. Birinci mərhələdə ümumtəhsil məktəblərində biologiya fənninin tədrisi zamanı şagirdlərin mənəvi tərbiyəsi üzrə işin durumunu, əsas istiqamətlərini üzə çıxarmaq, tədqiqat üçün irəli sürülmüş işçi fərziyyəsini - çıxış nöqtəsini müəyyənləşdirmək əsas məqsəd olmuşdur. Tanışlıq diaqnostik mərhələ kimi bu mərhələdə elmi - pedaqoji tədqiqat metodlarının köməyi ilə tədris vəsaitlərinin (dərslik və vəsaitlər, proqramlar) imkanları aşkar edilmiş, pedaqoji proses iştirakçılarının (müəllim və şagirdlərin) fəaliyyətinin mənəvi məzmun istiqamətinin

nəticələri müşahidə, anketləşdirmə, söhbətlər yolu ilə üzə çıxarılaraq təhlil edilmişdir.

İlkin səviyyənin üzə çıxarılması əsasında eksperiment üçün qruplar formalaşdırıldı, eksperiment və nəzarət qrupları təyin etdikdən sonra diqqəti şagirdlərin biologiyanın bütün bölmələri üzrə müvəffəqiyyət səviyyəsinə yönəltdik.

Eksperimentin birinci mərhələsində eksperiment və nəzarət siniflərdə təxminən eyni səviyyəli nəticələrin alınması onları sonralar əldə ediləcək eksperimentlərin nəticələri ilə müqayisə etmək imkanları yaradır ki, bu da tədqiqat zamanı qarşıya qoyduğumuz məqsəd və vəzifələrin reallaşdırılması, işçi fərziyyəsinin doğruluğu, sübutluluğu baxımından çox əhəmiyyətlidir.

Bu mərhələdə pedaqoji proses kompleks şəkildə öyrənilmiş, fəal təlim və tərbiyə metodlarından istifadə olunmuşdur. Nəzarət qrupda şagirdlərin mənəvi tərbiyəsi üzrə iş məqsədyönlü şəkildə həyata keçirilməmişdir. Eksperimental qruplarda hazırlanmış proqram yerinə yetirildikdən sonra şagirdlərlə anket sorğuları keçirilmişdir, ancaq nəzarət qrupda eksperimental qruplar üçün hazırladığımız proqramdan istifadə edilməmişdir.

Cədvəl 1

Müəyyənləşdirici mərhələdə şagirdlərin mənəvi tərbiyəsinin nəticələrinin xarakteristikası

| Nəzarət qrupu | | | Səviyyələr | Eksperimental qruplar | | |
|---|---|---|---|---|---|---|
| Siniflər | | | | Siniflər | | |
| IX | X | XI | | IX | X | XI |
| 26% | 28% | 27% | Yüksək | 40% | 42% | 38% |
| 37% | 37% | 35% | Orta | 37% | 38% | 41% |
| 37% | 35% | 38% | Aşağı | 23% | 20% | 21% |

Cədvəldən göründüyü kimi, nəzarət qruplarında bütün səviyyələrdə eksperimental qruplardakı səviyyələrə nisbətən alınan nəticələr çox aşağıdır. Nəticələrin müqayisəli təhlili əsasında biz belə qənaətə gəlirik ki, eksperimental qruplarda şagirdlərlə aparılan mənəvi tərbiyə işləri səmərəli olmuşdur. Nəzarət qruplardakı mənəvi durumun nəticələrinin təhlili göstərir ki, burada mənəvi durum aşağı səviyyədədir.

Eksperimentin formalaşdırıcı mərhələsində ilkin mərhələnin gedişində alınan rəqəmlər, faktlar ümumiləşdirilmiş, tədqiqatın əsas müddəaları dəqiqləşdirilmiş, şagirdlərin mənəvi tərbiyəsi probleminin



tədqiqinə yeni konseptual yanaşma həyata keçirilmişdir. Bu mərhələdə VI-XI siniflərdə eksperiment və nəzarət qrup üzrə məktəblilərin tərbiyəvilik səviyyəsinin nəticələri öyrənilmiş və 1-5 bal arası qiymətləndirilmişdir.

Cədvəl 2

Məktəblilərin tərbiyəvilik səviyyəsinin xarakteristikası (balla)

| Şəxsiyyə-tin keyfiyyətləri | VI sinif | | VII sinif | | VIII sinif | | IX sinif | | X sinif | | XI sinif | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sinif və qruplar | EQ | NQ | EQ | NQ | EQ | NQ | EQ | NQ | EQ | NQ | EQ | NQ |
| Erudisiya | 4 | 3 | 3,7 | 3,1 | 4,1 | 3,6 | 4 | 3 | 4 | 3 | 4,7 | 4,1 |
| Təlimə səy münasibəti | 4 | 3 | 4 | 3 | 4 | 3,4 | 4,2 | 3,3 | 4 | 3,6 | 4,6 | 4,2 |
| Əməyə münasibət əməksevərlik | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4,6 | 4,4 |
| Mən və cəmiyyət | 4 | 3 | 4 | 3 | 4 | 3 | 4,1 | 4 | 4,2 | 3,8 | 4,7 | 4,5 |
| Mən (özünə-münasibə) | 4 | 3,4 | 4 | 3,5 | 4 | 3,7 | 4 | 3,2 | 4 | 3,8 | 4,8 | 4,6 |
| Mən və təbiət | 4 | 3,9 | 4 | 4 | 4 | 4 | 4 | 3,9 | 4 | 4 | 4,8 | 4,7 |
| Estetik zövq | 4 | 3,9 | 4 | 3,9 | 4 | 3,8 | 4 | 3,9 | 4 | 3,8 | 4,8 | 4,7 |
| Mən və mədəniyyət | 4 | 3,8 | 4 | 4 | 4 | 3,9 | 4 | 4 | 4 | 3,9 | 4,8 | 4,7 |

Cədvəldən göründüyü kimi, eksperiment qruplarda məktəblilərin tərbiyəvilik səviyyəsi yüksəlmişdir.

Tədqiqat zamanı şagirdlərin məktəbdə biologiya fənni üzrə təlim işlərinə emosional münasibətləri də müəyyənləşdirildi.

Diaqram 2.Şagirdlərin məktəbdə təlimə emosional münasibətlərinin xarakteristikası




Diaqramdan aydın olur ki, eksperimental qruplarda biologiya fənninin mənəvi tərbiyə üzrə imkanlarının üzə çıxarılmasına aid görülən işlər şagirdlərin bu fənnə olan marağını xeyli artırmışdır.

Eksperimental tədqiqatın yoxlayıcı mərhələsində biologiya fənnin-in tədrisi prosesində şagirdlərin mənəvi tərbiyəsi üzrə struktur - fəaliyyət modeli reallaşdırılmış, həyata keçirilmişdir. Tamamlayıcı mərhələ kimi nəzəri eksperimental nəticələr dəqiqləşdirilmiş, ümumiləşdirilib sistemə salınmış və alınmış nəticələr təsvir edilmişdir. Biologiya dərslərinin mənəvi

tərbiyə imkanlarını reallaşdırılmaq məqsədilə göstərilən pedaqoji fəaliyyət növlərindən istifadə edilmişdir: canlı təbiətin müşahidəsi, görkəmli alimlərin həyat fəaliyyətindən alınmış yüksək mənəvi nümunələrlə tərbiyə; mənəvi dəyərlərin aktuallaş-dırılması və bioloji təhsilin məzmununa Vətən mədəniyyətinin daxil edilməsi və s.

Eksperimentin sonunda 2008 - 2011 - ci illər ərzində görülən təcrübi - eksperimental işin nəticələri dəyərləndirildi və aydın oldu ki, araşdırmalar öz səmərəsini göstərməkdədir. Aparılan tədqiqatların nəticəsi biologiya dərslərində müşahidə, anketləşdirmə, söhbətlər yolu ilə təhlil edildi və şagirdlərin mənəvi tərbiyəsinin formalaşdırılması üzrə təklif etdiyimiz iş sisteminin səmərəliliyi təsdiqləndi.

Cədvəl 3

2008-2011-ci illərdə VI-XI sinif şagirdlərinin biologiya dərslərində mənəvi tərbiyəsinin formalaşdırılması üzrə işin ümumi mənzərəsi

| İllər | Şagirdlərin ayı | Düz və tam cavablar | Düz və natamam cavablar | Səhv cavablar | Cavab verməyənlər | Təlimin səmərəliliyi | Keyfiyyət (%-lə) |
|---|---|---|---|---|---|---|---|
| 2008-2009 | 98 | 44 | 30 | 24 | - | 51 | 75,5 |
| 2009-2010 | 139 | 48 | 65 | 26 | - | 62,5 | 81,3 |
| 2010-2011 | 161 | 82 | 62 | 17 | - | 78,8 | 89,4 |




Diaqram 3. Cədvəl 3-ün keyfiyyət göstəricilərinin miqdar nisbəti %-lə

Cədvəllərin və diaqramların analizinin nəticələri dinamikanın artdığını bir daha təsdiq etdi. Eksperimentin gedişində şagirdlərin tərbiyəvilik səviyyəsinin yüksəldiyi açıq-aydın müşahidə olunmuşdur. Eksperimentin gedişi riyazi statistik üsulla işlənərək sonda eksperimental işlərin nəticələri “Koqnitiv meyarlar”, “Təcrübi-eksperimental” iş prosesi, “Canlı aləmi öyrənmək” istiqamətlərində ümumiləşdirilmişdir.

Təcrübi işlərin təhlili göstərir ki, bu mərhələdə şagirdlərin mənəvi sərvətlər haqqında bilik və təsəvvürləri yeni əlamət və formalarla



zənginləşmişdir. Məktəblilər, xüsusilə yuxarı sinif şagirdləri artıq canlı aləmə mənəvi münasibət istiqamətində müəyyən nəticələr əldə etmiş, təcrübəyə malik olmuşlar. Bu hal tədris, sinifdənxaric işlər və məktəbdənkənar tədbirlər zamanı qabarıq şəkildə özünü göstərmişdir. Böyük yaşlı şagirdlərin müstəqil şəkildə müşahidə apara bilməsi, aksiya və layihələr hazırlaması, onların kiçikyaşlı məktəbliləri müxtəlif məzmunlu müsabiqə və olimpiadalara hazırlaması istiqamətində gördükləri işlər xüsusi qeyd edilməlidir.

Tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə imkan verir:

1. Canlı aləm haqqında biliklər məcmusu kimi insanın dünyagörüşünün formalaşmasında biologiya fənninin yeri və rolu misilsizdir. Bu elmin tədrisi zamanı yüksək humanist məzmunu şagirdin sonrakı sosial taleyinə güclü təsir göstərmək imkanlarına malikdir. Digər tərəfdən, biologiyanın daxili məzmununun komponentləri və dəyərləri ekoloji xarakterdədir. Canlı aləm üzrə materiallarla biologiyanın struktur məzmunu üzvi bağlılıq təşkil edir. Bu isə biologiyanı mənəvi seçim situasiyaları ilə zənginləşdirir.

2. Biologiya dərslərinin mənəvi tərbiyə imkanlarının üzə çıxarılması məqsədilə aparılan ümumiləşdirmə və təhlillər bizə belə bir nəticəyə gəlməyə imkan verir ki, biologiya fənni bilik və mənəvi tərbiyə vasitəsi kimi iki mühüm istiqaməti özündə əks etdirir. Bu hər iki istiqamət şagird şəxsiyyətinin inkişafının ayrı-ayrı mərhələlərinin realizə olunmasında mühüm rol oynayır.

3. Digər ümumtəhsil fənləri kimi biologiya dərslərinin tədrisində də məqsəd şagirdin şəxsi-mənəvi keyfiyyətlərinin kompleks şəkildə inkişaf etdirilməsidir.

4. Bilik, bacarıq və vərdişlər şagirdlərin müxtəlif elm sahələri üzrə anlayış və qanunauyğunluqlar haqqında zehni səviyyəsini formalaşdırır ki, bu da insanda dünyagörüşü, ətraf aləmə, cəmiyyət üzvlərinə və özünə müəyyən normalar daxilində münasibətin təşəkkül tapmasına kömək edir.

5. Ümumtəhsil məktəbində biologiyanın tədrisi prosesinə yalnız şagirdlərin bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsi prosesi kimi baxmaq olmaz. Bu tədris fənni əməksevərlik, humanizm, ümumbəşəri və milli ideallar ruhunda tərbiyə olunmaq, vətənpərvərlik və vətəndaşlıq keyfiyyətlərinə yiyələnmək işində geniş imkanlara malikdir.

6. Xeyirxahlıq və gözəlliyi duymaq hissinin tərbiyəsi işində biologiya fənninin yeri və rolu digər fənlərə nisbətdə əhəmiyyətli dərəcədə yüksəkdir.

7. Biologiyanın tədrisində mənəvi tərbiyə imkanlarının başlıca

istiqamətini aşağdakı kimi səciyyələndirmək olar:

a) fənnin daxili məzmunu (canlı təbiətin müşahidəsi);

b) fənnin məzmununun diyarşünaslıq istiqaməti;

c) fənnin məzmunundakı ekoloji tərbiyə istiqaməti;

d) görkəmli alimlərin həyat və fəaliyyəti ilə şagidlərin tanışlığı;

8. Məktəbdə biologiya fənni intellektual, emosional, iradi keyfiyyətlərin, tam mənəvi insanın formalaşdırılması prosesinin tərkib hissəsidir. Bu fənn üzrə məşğələlər mənəvi olan haqqında aydın təsəvvür yaratmaq, məktəblinin bir şəxsiyyət kimi yetişməsinə layiqli töhfə vermək kimi imkanları ilə xüsusi seçilir.

Dissertasiyada alınan nəticələrə müvafiq olaraq aşağıdakı **təkliflərin** nəzərə alınmasını məqsədəmüvafiq hesab edirik:

1.Ümumtəhsil məktəblərində şagirdlərin mənəvi tərbiyəsinin mahiyyəti və məzmununun düzgün, tam və dolğun şəkildə anlaşılması, məqsədyönlü təşkili üçün pedaqoji kollektivin elmi-metodiki və digər informasiyalaşdırıcı vasitələrlə təmin edilməsinə nail olunmalıdır. Məktəbdə müəllimlərin problem üzrə maarifləndirilməsinə şərait yaradılmalıdır.

2. Biologiya dərsləri üzrə proqramlar, dərslik və vəsaitlər hazırlanarkən mənəvi tərbiyə keyfiyyətlərinin formalaşdırılması məsələlərinə layiqli yer verilməli, yetişən nəslin mənəvi simasının qorunması, inkişaf etdirilməsi, zənginləşdirilməsi prinsipi ön plana çəkilməlidir. Bəhs olunan fənn istiqamətində onun başlıca meyar kimi gözlənilməsinə nail olunmalıdır.

3. Problemlə bağlı biologiya müəllimlərinin iş təcrübəsinin nəşrinə və yayılmasına nail olunmalı, dövrü və pedaqoji mətbuatda, fənn metod birləşmələrində müzakirələr təşkil edilməli, qabaqcıl təcrübənin öyrənilib yayılmasına, innovasiyaların tətbiqinə şərait yaradılmalıdır.

4. Ümumtəhsil məktəbində təlim-tərbiyə sisteminə mənəvi tərbiyə prinsipi daxil edilməli, pedaqoji prosesdə onun gözlənilməsinə nail olmaq lazımdır.

Tədqiqatın əsas məzmunu və başlıca ideyaları iddiaçının çap etdirdiyi aşağıdakı əsərlərdə öz əksini tapmışdır:

1. Biologiya tədrisinin optimal təşkili yolları // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, Naxçıvan: 2006, № 4 (8), s. 111-114

2. Biologiyanın tədrisində tərbiyə məsələlərinin qoyuluşunun spesifik xüsusiyyətləri haqqında // Naxçıvan Dövlət Universitetinin Xəbərləri, Naxçıvan: 2008, № 3 (23), s. 105-108

3. Biologiya dərsləri mənəvi tərbiyənin inkişafında vasitədir // Naxçıvan Dövlət Universitetinin Xəbərləri, Naxçıvan: 2010, № 1(19),s.129-132

4. Роль внеклассных занятий по биологии в формировании нравственного воспитания учащихся // Международный научный журнал, спецвыпуск, Гуманитарные науки, Москва: 2010, s. 8-10

5. Уроки биологии как способ развития нравственного воспитания учащихся // Международный научный журнал, спецвыпуск, Гуманитарные науки, Москва: 2010, s. 11-13

6.Ailədə yeniyetmələrin vətəndaşlıq tərbiyəsi üzrə işin formaları //NaxçıvanMüəllimlərİnstitutununXəbərləri,Naxçıvan:2010,№4(24),s.17-20.

7. Biologiya müəllimi və şagirdlərin mənəvi tərbiyəsi // Naxçıvan Müəllimlər İnstitututunun Xəbərləri, Naxçıvan: 2011, № 3, s. 92-97

8. VI-VIII sinif şagirdlərinin biologiya dərsləri vasitəsilə mənəvi tərbiyəsinin formalaşdırılmasının imkan və yolları / Doktorantların və gənc tədqiqatçilarin XV Respublika Elmi konfransının materialları. Bakı, 2011, s. 60-61

9. Əmək təlimi dəslərində məktəblilərin humanizm tərbiyəsi // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri,Naxçıvan:2011,№1(25),s.20-22

10. Характерные особенности подросткового периода и учитывание этих особенностей в нравственном воспитании в семье // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri,Naxçıvan:2011,№3,s.23-26

11. Проблема морального воспитания учащихся на уроках биологии // Международный научный журнал, Москва: 2012, №1, с. 112-113

12. Biologiya dərslərində şagirdlərin mənəvi tərbiyəsinin əsas istiqamətləri // Təhsil Problemləri İnstitutu, Bakı: 2012, №1, s. 111-115

13. Mənəvi tərbiyə anlayışı pedaqoji problem kimi // Naxçıvan Dövlət Universitetinin Xəbərləri, Naxçıvan: 2012, № 2 (46), s. 217-220

14. Ümumtəhsil məktəblərinin biologiya dərslərində şagirdlərin mənəvi tərbiyəsinin öyrənilməsinin vəziyyəti / Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri mövzusunda Respublika Elmi konfransının materialları, Azərbaycan Respublikası Təhsil Problemləri Institutu. Bakı, 28 iyun 2012, s. 267-268

15. Формирование нравственного воспитания школьников на уроках биологии в общеобразовательных школах // Инновация, качество образования и развитие. Материалы II международной научной конференции. Баку, 7-9 июня 2012, с.164-165

16. Содержание, формы и методы нравственного воспитания школьников при преподавании биологии в общеобразовательных школах. Научная дискуссия: вопросы педагогики и психологии:

материалы III Международной заочной научно-практической конференции. Москва, Часть I (18 июля 2012) , с. 41-45

17. Mənəvi tərbiyənin formalaşdırılmasında biologiya dərslərinin rolu. Ümumi orta təhsilin müasir problemləri mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 24 noyabr 2012- ci il, s. 264-265

18. Bioloji məzmun istiqamətli sinifdənxaric işlər və məktəbdən-kənar tədbirlər zamanı şagirdlərin mənəvi tərbiyəsi. Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi konfransının materialları. Bakı, 18-19 noyabr 2012-ci il



**VUSALA MAMEDKULU qizi ISMAYILOVA**

**The system of work on the formation pupils' spiritual nurture in teaching biology at secondary schools**

## SUMMARY

The dissertation consists of introduction, two chapters, six semi-chapters, conclusion and the list of references.

The introduction deals with the actuality of the topic, the object of the investigation, its subject, aim and goals, scientific hypothesis, methodological basis, investigation methods, scientific innovation, theoretical and practical importance, principal propositions and approbation.

The first chapter is called "The theory and practice of pupils' moral nurture at the Biology lessons at secondary schools". Firstly, has been investigated general-cultural aspect of the nurture process at school. Then there have been investigated the social-philosophic and pedagogic-psychological fictions connected with the moral formation of pupils at the Biology lessons. As well as there have been characterized the peculiarities of the investigation from the modern scientific-theoretical point of view. At the next stage there were efforts on discovering the arranging function, place and role of biology lessons beside others and was shown that this body is consisting part of general nurture system. At the end of the chapter was revealed the existing situation of spiritual nurture of pupils during the teaching process of Biology and were determined the main directions for improving the efficiency on this field.

The second chapter is called "The theme, form and methods of spiritual nurture of pupils at the Biology lessons at secondary schools". Basing on social use of Biology lessons was found out the forms and methods, the means and ways of the nurture of pupils in teaching process. Pupils' spiritual nurture was revealed during extracurricular work and events having biological direction, in the end main activity types on pupils' spiritual nurture in the process of teaching this subject by confirming the experience-experimental ways for it.

In the part of conclusion of this dissertation work the results got throughout its research have been summarized.

**ВЮСАЛА МАМЕДКУЛУ кызы ИСМАИЛОВА**
**Система работы по формированию нравственного воспитания школьников при преподавании уроков биологии в общеобразовательных школах**

**РЕЗЮМЕ**

Диссертация состоит из введения, двух глав, заключения и предложений, приложений и списка литературы.

Во "Введении" обоснована актуальность темы, сформулированы цель и задачи работы, изложены ее научная новизна, теоретическая и практическая значимость, описаны методы, приемы исследования, представлены краткие сведения об апробации диссертации.

Первая глава называется "Теория и практика нравственного воспитания при преподавании биологии в общеобразовательных школах". Вначале анализируется общекультурный аспект содержания воспитательного процесса в школе и характеризируются социально-философские, педагого-психологические литературы, также научно-теоретические особенности сущности данной работы, связанные с формированием нравственного облика школьников на уроках биологии. Далее в работе наряду с другими предметами было приложено усилие определить организационную функцию, место и роль уроков биологии в нравственном воспитании школьников, что в целом является составной частью общевоспитательной системы.

Вторая глава называется "Содержание, формы и методы нравственного воспитания школьников при преподавании биологии в общеобразовательных школах". Здесь основываясь на социальную значимость уроков биологии устанавливаются формы и методы, приемы и способы нравственного воспитания, также выявляются возможности указанного нравственного воспитания школьников во время внешкольных мероприятий и внеклассных работ по направлению биологического содержания. Далее в работе выявляются основные виды деятельности по нравственному воспитанию школьников в процессе преподавания биологии, что нашло свое потверждение в проведенных експериментах.

В заключительной части диссертации обобщаются результаты, полученные в ходе исследования.



Çapa imzalanmışdır: 23.11.2013

Formatı: 60x90,16/1, həçmi:1.4ç/v

Sifariş:19 Sayı100

NDU-nun "Qeyrət" nəşriyyatının mətbəəsində çap olunmuşdur.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ВЮСАЛА МАМЕДКУЛУ КЫЗЫ ИСМАИЛОВА**

# СИСТЕМА РАБОТЫ ПО ФОРМИРОВАНИЮ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ ШКОЛЬНИКОВ ПРИ ПРЕПОДАВАНИИ УРОКОВ БИОЛОГИИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

5804.01 -Общая педагогика, история педагогики и образования

**АВТОРЕФЕРАТ**

Диссертации на соискание ученой степени доктора философии по педагогике

Нахчыван - 2013